


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 89 (24.226)

*19 may 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Afrika Respublikası Milli Assambleyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakulanı qəbul edib.

Dövlətimizin başçısı Nosivive Mapisa-Nqakulanın rəhbərlik etdiyi nümayəndə heyətinə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi və bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti ilə görüşməkdən və Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf hissi duyduqlarını bildirən Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə etdi.

Qonaq Ulu Öndərin 100 illiyi münasibətilə keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək burada müxtəlif ölkələrdən nümayəndə heyətlərinin bir-biri ilə görüşməsi və fikir mübadiləsi aparması üçün də yaxşı imkanın yarandığını bildirdi.

Dövlətimizin başçısının Ümummilli Liderin siyasətini uğurla davam etdirdiyini vurğulayan Nosivive Mapisa-Nqakula Ulu Öndərin Azərbaycan tarixində müstəsna rol oynayan böyük şəxsiyyət və Lider olduğunu qeyd etdi, ölkəmizin inkişafında onun müstəsna rolunu vurğuladı. Qonaq dedi ki, Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir.

Prezident İlham Əliyev qeyd etdi ki, dövlətçiliyimizin qurucusu olan Ulu Öndər ölkəyə rəhbərliyə gəldiyi dövrdə Azərbaycan çox ağır vəziyyətdə idi. Məhz Ümummilli Liderin güclü iradəsi və yorulmaz səyləri nəticəsində Azərbaycan çətin vəziyyətdən çıxaraq inkişaf yoluna qədəm qoyub.

Söhbət zamanı ikitərəfli əlaqələrin genişlənməsinin vacibliyi vurğulandı, əməkdaşlıq üçün yaxşı potensialın olduğu qeyd edildi, kənd təsərrüfatı, enerji, turizm, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə Azərbaycan və Cənubi Afrika Respublikasının beynəlxalq təşkilatlar, həmçinin Qoşulmama Hərəkatında uğurlu əməkdaşlığı qeyd edildi.

## Prezident İlham Əliyev Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu qəbul edib.

Prezident İlham Əliyev Njupuo Yap Mariatunun Azərbaycana səfərinin ölkəmizin Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığının genişlənməsi işinə töhfə verdiyini və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Njupuo Yap Mariatu, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi əməliyyat-taktiki təlimdə fəxri qonaq qismində iştirak etməkdən məmnunluğunu bildirdi.

Heydər Əliyevin görkəmli dövlət xadimi və siyasətçi olduğunu vurğulayan Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevin ölkədə sabitliyin və dinamik inkişafın təmin edilməsi ilə onun siyasətini uğurla davam etdirdiyini bildirdi. Dövlətimizin başçısının regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirdiklərini deyən qonaq qeyd etdi ki, bu, Prezident İlham Əliyevin ölkəmiz və region üçün verdiyi dəyərli töhfədir. Njupuo Yap Mariatu Azərbaycanın Türkiyədə baş verən zəlzələ zamanı göstərdiyi köməyin təşkilat tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan tərəfindən 1000 evin tikintisi ilə bağlı məlumat verdi.

Qonaq qeyd etdi ki, Azərbaycan 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvü olaraq mülki müdafiə ilə bağlı məsələlərin təşviqi məqsədi daşıyan təşəbbüslərdə fəal iştirak edən ölkələrdən biridir və təşkilatın potensialının gücləndirilməsi proqramları çərçivəsində əməkdaşlığa töhfə verir. Njupuo Yap Mariatu Baş Assambleyanın 2022-ci ildə keçirilmiş sonuncu sessiyasında Azərbaycanın yenidən 4 il müddətinə İcraiyyə Şurasının üzvü seçilməsini məmnunluqla vurğuladı.

O, səfərinin əməkdaşlığımızın daha da inkişaf etməsinə və güclənməsinə təkan verəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə ermənilər tərəfindən mülki şəxslərimizə qarşı ballistik raketlərin atıldığını, dinc sakinlərimizin qətlə yetirildiyini, eyni zamanda energetika obyektlərimizə də hücumların olduğunu qeyd etdi. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma işləri barədə məlumat verdi.

Dövlətimizin başçısı COVID-19 pandemiyası zamanı ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına göstərdiyi dəstəyi xatırladı, bunu Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirak etməsinin daha bir nümunəsi olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurduğunu qeyd etdi.

Söhbət zamanı iqlim dəyişiklikləri barədə fikir mübadiləsi aparıldı.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

**AZƏRTAC**

## Naxçıvanda "ASAN xidmət" mərkəzinin açılışı olub






Mayın 18-də Naxçıvan regional "ASAN xidmət" mərkəzinin açılış mərasimi keçirilib. Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstəsi qoyulub.

Tədbirdə məlumat verilib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı ilə yaradılıb.

Naxçıvan "ASAN xidmət" mərkəzi, ümumilikdə, respublika üzrə 26-cı mərkəzdir. Mərkəzin tikintisinə 2020-ci ildə başlanılıb, 2023-cü ilin may ayında inşası başa çatdırılıb. "ASAN xidmət" mərkəzində videomüşahidə, görüntüləmə və videonövbə sistemləri, 2 ədəd lift, yanğınsöndürmə sistemi, mərkəzləşdirilmiş

*Ardı 2-ci səhifədə*





havalandırma, istilik sistemi, generator və UPS quraşdırılıb. "ASAN xidmət" mərkəzi Naxçıvan şəhəri, Seyid Cəfər Pişəvəri 7 ünvanında






yerləşir. Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan 465 min vətəndaşın əhatəsində olan mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcəkdir. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 360-dan çox xidmət həyata keçiriləcək. Əməkdaşların ümumi sayı 228, könüllülərin sayı 45 nəfər nəzərdə tutulur. "ASAN xidmət" mərkəzinin ərazisində 50 avtomobil üçün parklama yeri yaradılıb, mərkəzin daxilində vətəndaşların istirahəti üçün "ASAN kafe" nəzərdə tutulub.

Açılış mərasimindən sonra ***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev*** jurnalistlərə açıqlama verib: – Cənab Prezidentin tapşırığına əsasən səlahiyyətli nümayəndə Fuad Nəcəfli ilə birgə "ASAN xidmət" mərkəzinin açılışını etdik. Naxçıvanda yaşayan sakinlərə, Azərbaycan vətəndaşlarına xeyirli-uğurlu olsun. Bu artıq ölkəmizdə açılan 26-cı "ASAN xidmət" mərkəzidir. Və bu mərkəz də digər mərkəzlərimiz kimi 360 xidmətlə Naxçıvan sakinlərinə şəffaf, operativ, nəzakətli qaydada xidmətlər göstərəcək. Ümumilikdə, burada 11 nazirlik, dövlət komitəsi, eyni zamanda bank, sığorta və digər funksional xidmətlər sakinlərin xidmətində olacaq. Bu da o deməkdir ki, vətəndaş üçün tələb olunan mütləq əksəriyyət dövlət xidmətləri "bir pəncərə" prinsipi ilə fəaliyyət göstərəcək. Ən əsası bu yeni mərkəzin açılışı həm də yeni iş yeri deməkdir. Burada əksəriyyəti gənclərimiz olan 228 sakin işləyəcək. Eyni zamanda 45 könüllü vətəndaşlarımıza sənədlərin doldurulmasında, müxtəlif suallara cavab tapılmasında köməkliklər edəcəklər.




Və artıq burada da böyük könüllülük hərəkatı başlayacaq.

Ülvi Mehdiyev onu da qeyd edib ki, Naxçıvanda açılan ölkə üzrə ilk regional "ASAN xidmət" mərkəzidir. Bundan sonra artıq müraciət saylarına uyğun digər mərkəzlərin açılması müəyyənləşdiriləcək. Eyni zamanda bu il ərzində Lənkəranda "ASAN xidmət" mərkəzinin açılışı nəzərdə tutulur. Gələcəkdə isə cənab Prezidentin tapşırığına əsasən "ASAN xidmət" mərkəzi işğaldan azad olunmuş ərazilərdə də fəaliyyət göstərəcək.

**Nail ƏSGƏROV**




## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Naxçıvan Dövlət Universiteti ilə bağlı paylaşım edib

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Dövlət Universitetinin tələbələrini beynəlxalq müsabiqədə qalib gəlmələri münasibətilə təbrik edib.

Səlahiyyətli nümayəndə bu barədə rəsmi "Twitter" səhifəsində paylaşım edib: "Beynəlxalq "1 Race 4 Oceans Impact" müsabiqəsində qalib gələn komandalar arasında Naxçıvan Dövlət Universiteti də var. "Sıfır çirklənmə" mövzusunda 1-ci yer tutan tələbələrimizi təbrik edirik. "Enactus Dünya Kuboku 2023" ün qalibi olmağı arzulayırıq", – Fuad Nəcəfli bildirib.

## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının genişləndirilmiş iclası keçirilib





Mayın 18-də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının genişləndirilmiş iclası keçirilib.

İclası Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sabiq sədri Anar İbrahimov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib və nizamnaməyə uyğun olaraq işinə xitam verilməsi ilə əlaqədar həm məclisə, həm də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına yazılı müraciət edib. Buna görə də şuranın genişləndirilmiş iclasının keçirilməsi zərurəti yaranıb. Səttar Möhbalıyev, eyni zamanda Anar İbrahimovun Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri işlədiyi müddətdə səmərəli fəaliyyətindən, şuranın nüfuzunun qaldırılması istiqamətində gördüyü işlərdən danışıb, ölkə Prezidenti tərəfindən ona etimad göstərildiyini qeyd edib, yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edərək fəaliyyətində uğurlar arzulayıb.

Gündəlikdə duran məsələlər barədə məlumat verildikdən və gündəlik qəbul olunduqdan sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev şuranın yeni nizamnaməsində aparılan dəyişikliklər barədə tədbir iştirakçılarına məlumat verib və nizamnamə qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası sədrinin seçilməsi, Anar İbrahimovun Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsinə xitam verilməsi olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri işlədiyi müddətdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyindən danışıb, şuranın bundan sonrakı fəaliyyətində də cəmiyyətdə öz mövqeyini qoruyub saxlayacağına, xalqımıza faydalı işlərlə xidmət edəcəyinə əminliyini ifadə edib.

Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsinə Abdullayev Qəzənfər İsmayıl oğlunun namizədliyi irəli sürülüb, onun Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının icraiyyə komitəsinə üzvlüyü təklif olunub.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Rövşən Hüseynov Qəzənfər Abdullayevin səmərəli fəaliyyətindən bəhs edib, onu dəstəklədiyini bildirib.

Təklif səsə qoyularaq qəbul olunub və Qəzənfər Abdullayev Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri seçilib, görülən işlər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Qəzənfər Abdullayev minnətdarlıq edərək göstərilən etimadı doğrultmaq üçün səylə çalışacağını bildirib, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının bundan sonra da Azərbaycan Respublikası Prezidentinin başlatdığı milli inkişaf konsepsiyasına öz töhfəsini verəcəyini, muxtar respublikanın inkişafında fəal iştirak edəcəyini vurğulayıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Çoxgöstəricili Klaster Sorğusu (MICS) həyata keçiriləcəkdir

*Naxçıvan Muxtar Respublikasında ana və uşaqların sosial rifah vəziyyətinin, insan inkişafının qiymətləndirilməsi və Dayanıqlı İnkişaf Məqsədləri ilə müəyyən edilmiş hədəflərə çatmanın ölçülməsi üçün beynəlxalq müqayisəliliyi təmin edən statistik məlumatların əldə edilməsi məqsədilə 2023-cü ilin iyun-avqust aylarında Çoxgöstəricili Klaster Sorğusu (MICS) həyata keçiriləcəkdir.*





Hazırlıq işləri çərçivəsində may ayının 18-də Çoxgöstəricili Klaster Sorğusu (MICS – Multiple Indicator Cluster Surveys) üzrə sahə işlərini həyata keçirəcək heyət üçün təlimlərə başlanılıb.

Təlimdən öncə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Təlimin açılış mərasimində BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens çıxış edib. Bildirib ki, qlobal miqyasda MICS özündə bir standartı təcəssüm etdirən sorğudur. Təkcə Azərbaycanın hüdudları ilə məhdudlaşmayan əsas diqqəti uşaqlar və qadınlar olan, ev təsərrüfatlarını özündə ehtiva edən MICS olduqca əsaslı, əhəmiyyətlidir. Qadınların və uşaqların yaşadığı dünyada baş verən dəyişiklikləri özündə əks etdirən MICS 23 il bundan öncə Azərbaycanda keçirilən metodologiya baxımından indiki MICS-dən fərq-



lənir. Əvvəlcə MICS-in əgər 28 göstəricisi mövcud idisə, hazırkı MICS-də 200-ə yaxın indikator var. Qeyd edilib ki, Azərbaycan Respublikasında 2015-2018-ci illəri əhatə edən milli statistikanın təkmilləşdirilməsinə dair Dövlət proqramı qəbul olunub. Proqramda ana və körpə sağlamlığı, qidalanma, digər tərəfdən funksional qabiliyyətlər, keyfiyyətin ölçülməsi, sosial transferlər, texnoloji bilik və vasitələr də əhatə olunub. 2022-ci ildə isə MICS-lə bağlı Nazirlər Kabineti istiqamətləndirici komitəni təsis edib. MICS-in bir qızıl standart kimi qəbul olunmasında komitə aparıcı rol oynayır.

Diqqətə çatdırılıb ki, ötən ay Bakıda da eyni ilə 30 gün ərzində belə bir təlim keçirilib. Həmin təlimdə 18 dinləyici iştirak edib. Artıq 12 komanda formalaşıb. Həmin komanda avqust ayının sonuna qədər bu sahədə öz fəaliyyətlərini davam etdirəcək. Məqsəd Naxçıvanda da sorğu nəticəsində mümkün qədər keyfiyyətli və etibarlı məlumatlar əldə etməkdir. Bu işdə təlim iştirakçılarının üzərinə böyük öhdəlik düşür.

Tədbirdə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov diqqətə çatdırıb ki, MICS-in tarixi 1995-ci ildən başlayıb və indiyədək dünyanın 118 ölkəsində sorğu aparılıb. Bəzi ölkələrdə, hətta bir neçə dəfə bu müayinə keçirilib. Burada əsas məqsəd müayinələr nəticəsində bəzi sosial-iqtisadi göstəriciləri müəyyən etməkdir ki, onlar da hökumətə müxtəlif sahələrdə düzgün siyasətin formalaşdırılması, Dövlət proqramlarının qəbul edilməsi, aşkar olunan tendensiyaların daha da müsbət şəkildə qiymətləndirilməsi üçün müxtəlif tərkiblərin bölünməsinə şərait yaradır.

Diqqətə çatdırılıb ki, Bakıda keçirilmiş təlimlər nəticəsində Azərbaycanın digər bölgələrində artıq müayinələr başlayıb, bu prosesin iyun ayının sonunadək başa çatdırılması nəzərdə tutulub. Sorğuda orta hesabla gün ərzində 3 ev təsərrüfatında müayinələr aparmaq imtiyazı olacaq. Qiymətləndirmədən sonra Naxçıvan Muxtar Respublikasında keçirilən bu sorğu ölkəmizin ümumi mənzərəsinə əlavə olunacaq və sorğu əsasında dövlətimiz tərəfindən müxtəlif qərarlar qəbul ediləcək. Ölkə başçısının Sərəncamı ilə Dövlət proqramına daxil edilməsi bu müayinənin əhəmiyyətliliyini bir daha təsdiqləyir. Komitə sədri bu prosesin keçirilməsində göstərilən dəstəyə görə UNICEF-ə təşəkkür edib, bu sorğu nəticəsində bir sıra göstəricilərin əldə olunmasının mümkün olacağını bildirib. Qeyd edilib ki, BMT tərəfindən qəbul olunan 2030-cu ilədək dayanıqlı inkişaf məqsədləri təşəbbüsünə Azərbaycan dövləti də qoşulub. Bir sıra dayanıqlı inkişaf məqsədləri üzrə göstəricilərin də məhz bu müayinə nəticəsində əldə edilməsi mümkün olacaq.

Tədbirdə Dövlət Statistika Komitəsinin və UNICEF-in əməkdaşları çıxış edərək müxtəlif məsələlərlə bağlı iştirakçıları məlumatlandırıb, “Əsas sahə işi üzrə təlimlər”in iyun ayının 18-dək davam edəcəyi bildirilib, təlim çərçivəsində görüləcək işlər nəzərə çatdırılıb.

Tədbirdən sonra Dövlət Statistika Komitəsinin və UNICEF-in əməkdaşları Naxçıvan Doğum Mərkəzində olublar. Baxış zamanı iştirakçılara mərkəzlə bağlı dolğun məlumat verilib.

Qeyd edək ki, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykensin və digər qonaqların muxtar respublikamızda üçgünlük səfəri çərçivəsində səhiyyə və təhsil müəssisələri, turizm potensialı ilə tanışlıq olacaq.

**✍ Gülcamal TAHİROVA**

*Naxçıvanda cari ilin ötən dövründə 2221 nəfər işsiz statusu almış, 168 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmiş, daha 384 əməkqabiliyyətli şəxsin məşğulluğunun təmin olunması üçün zəruri tədbirlərin icrası davam etdirilir. Bu barədə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin yaydığı məlumatda qeyd olunur.*

## Naxçıvan sakinlərinin məşğulluq vəziyyəti və sosial müdafiəsi yaxşılaşır



Məlumata əsasən sosial sahədə aparılan fəaliyyət nəticəsində muxtar respublika üzrə məşğulluğa dair reyestrdə 2221 nəfər işsiz kimi qeydiyyata alınıb. Aparılan monitorinq və təhlillər zamanı bu rəqəmin işsizliyin gerçək səviyyəsini əks etdirmədiyi müəyyən olunduğu üçün bu istiqamətdə işlər davam etdirilir.

Səlahiyyətli nümayəndəlik tərəfindən vətəndaşların məşğulluq probleminin həlli istiqamətində göstərilən səylər nəticəsində 1116 nəfərin özünüməşğulluq imkanlarının qiymətləndirilməsi məqsədilə iş aparılır. Bildirilir ki, 2023-cü ilin sonunadək 1000-ə yaxın vətəndaşın haqqı ödənilən ictimai işlərə, 1450 nəfərin isə özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin sosial sahədə digər təklifləri ünvanlı dövlət sosial yardımının (ÜDSY) ayrılması ilə bağlıdır. Səlahiyyətli nümayəndəliyin təşəbbüsü ilə muxtar respublikada müvafiq kateqoriyadan olan ailələrin ünvanlı dövlət sosial yardımı ilə təmin olunması sahəsində zəruri tədbirlərin icrası davam etdirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yerli bölmələrin əməkdaşlarının iştirakı ilə 3 may 2023-cü il tarixdən müvafiq kateqoriyadan olan ailələrin ünvanlarında monitorinqlər keçirilir, ölkədə proaktiv qaydada ilk dəfə ünvanlı dövlət sosial yardımı təyinatına dair işlər aparılır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən verilən məlumata əsasən müvafiq dövlət orqanları işsiz vətəndaşların sayının və ÜDSY-nin təyinatı ilə bağlı dəqiqləşdirilmə üçün monitorinqləri davam etdirir.

May ayında bu istiqamətdə görülən işlər çərçivəsində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli qurumlarının əməkdaşları 455 ailənin yaşadığı ünvanlarda olub, 130 ailə tərəfindən ünvanlı dövlət sosial yardımının verilməsi üçün toplanmış zəruri sənədlər təyinat üzrə qəbul edilib. Eyni zamanda 96 ailənin üzvlərinə də müvafiq sənədləri toplayaraq aidiyyəti üzrə təqdim etməsi izah olunub. Bu nəticələrlə birlikdə may ayının ötən dövrü ərzində, ümumilikdə, 293 ailənin sənədləri təyinata salınması üçün Əhalinin Sosial Müdafiəsi mərkəzlərində qeydiyyata alınıb. Ünvanlı dövlət sosial yardımının əlçatanlığının və operativliyinin təmin edilməsi məqsədilə müraciətlərin qəbulu ayın sonuncu həftəsinədək davam etdiriləcək.

Qeyd edək ki, yanvar ayında muxtar respublikada 318 ailəyə ünvanlı dövlət sosial yardımı ödənilirdisə, aprel ayında bu say 711-ə çatıb.

**“Şərq qapısı”**

## Avstriyanın ən prestijli kənd təsərrüfatı araşdırma mərkəzi ilə əməkdaşlıq əlaqələri qurulur



*Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev və universitetin nümayəndə heyəti Avstriyada səfərdədir. Səfər zamanı heyət paytaxt Vyanada Azərbaycan Səfirliyinin binasında Ümummilli Lider Heydər Əliyevin büstünün açılış mərasimində iştirak edib.*

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli ilə görüşən rektor səmimi qəbul və əməkdaşlığa verdiyi dəyər üçün minnətdarlıq edərək səfirə hədiyyə təqdim edib. Eyni zamanda Elbrus İsayev Motsart Konsert Sarayında Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan Vyana orkestrinin konsertində də iştirak edib.

Sonra heyət Avstriyanın ən qabaqcıl təsərrüfat və araşdırma mərkəzlərindən olan Avstriya Federal Tədqiqatlar Mərkəzi Raumber-Gumpensteində mövcud olan tədris və araşdırma mərkəzlərini, açıq hava laboratoriyalarını gəzib, mərkəzin fəaliyyəti haqqında məlumatlandırılıb. Qeyd edilib ki, 76 ildir, fəaliyyət göstərən mərkəz dünyada kənd təsərrüfatı sahəsində elmi-tədqiqat və praktikanı özündə birləşdirən bənzərsiz institutlardan biridir. Hazırda mərkəzdə kənd təsərrüfatı sahəsində 97 araşdırma layihəsi və Avropa Birliyinin maliyyələşdirdiyi 11 layihə icra edilir.

Rektor və rəhbərlik etdiyi heyət tədqiqat mərkəzinin mineral və üzvi gübrələrin yem bitkilərinin böyümə və inkişafına təsirini öyrənən təcrübə sahələri ilə tanış olub. Bundan başqa, quraqlığın, temperatur və $CO_2$ qazının artmasının bitkilərin inkişafına təsirini öyrənən açıq laboratoriyalarda müşahidələrin aparılması prosesi izlənilib. Əlavə olaraq nümayəndə heyəti tədqiqat mərkəzinin heyvandarlıq bölməsində olub, heyvanların müayinəsi və müalicəsi, yem rasionunun müəyyənləşdirilməsi prosesləri ilə tanış olub, mərkəzin tanınmış professorları tərəfindən Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinə təlimlər, treninqlər keçirilib.

Görüşün yekununda universitetin rektoru, dosent Elbrus İsayev və mərkəzin direktoru Johann Gasteiner birgə əməkdaşlıq məsələləri barədə danışıblar. Kənd təsərrüfatı sahəsində ən nüfuzlu elm adamlarının cəmləşdiyi Raumberg-Gumpenstein təhsil və araşdırma mərkəzi ilə qarşılıqlı əməkdaşlıq məsələləri haqqında müzakirələr aparılıb, gələcək əməkdaşlıq məsələləri barədə razılığa gəlinib. Aparılan müzakirələrdə qida təhlükəsizliyi və biotexnologiya sahəsində tərəfdaşlıq, yabanı florada geniş yayılmış faydalı bitki növlərinin qarşılıqlı, identifikasiyası və onlardan səmərəli istifadə üzrə elmi layihələrin həyata keçirilməsi, heyvanlarda virus xəstəliklərinin aşkarlanmasında istifadə olunan yeni texnoloji avadanlıq və üsulları universitetdə tətbiq etmək, eləcə də elmi-tədqiqat işlərinin aparılması üçün mərkəzin tədqiqatçılarının Naxçıvana dəvət edilməsi, avstriyalı mütəxəssislərlə elmi layihələrdə iştirak və birgə məqalələrin nəşrinə nail olmaq və Naxçıvan Dövlət Universitetinin tələbələri üçün mühazirələrin təşkil edilməsi məsələləri öz əksini tapıb.

Nümayəndə heyəti bitkiçilik və torpaqşünaslıq, Heyvandarlıq, Ətraf mühit və heyvandarlığın idarə edilməsinin texnika və metodologiyası, Orqanik kənd təsərrüfatı və kənd təsərrüfatı heyvanlarının biomüxtəlifliyi elmi-tədqiqat mərkəzlərində olub. Səfər çərçivəsində heyvandarlıq, əkinçilik, iqlim dəyişikliyi ilə bağlı elmi-tədqiqatların aparılması, ətraf mühitin mühafizəsi ilə bağlı smart kənd təsərrüfatı layihələrinin idarə olunması sahəsində gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvanda qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,2 dəfə artıb



2023-cü ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasında 1.938 yeni vergiödəyici qeydiyyata alınıb. Bunların 87,6 faizi fiziki, 12,4 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,2 dəfə, o cümlədən fiziki şəxslərin sayı 2 dəfə, hüquqi şəxslərin sayı isə 30 dəfə artıb.

Cari ilin birinci rübündə kommersiya qurumlarının 52 faizi elektron qaydada, 48 faizi isə kağız daşıyıcılar vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Naxçıvanlı sahibkarlar və ailə təsərrüfatçılarının da iştirak etdiyi XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisindən təəssüratlar



Məlum olduğu kimi, Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – “Caspian Agro” və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi – “InterFood Azerbaijan” sərgiləri keçirilir. Hər il olduğu kimi, bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Ümumilikdə, sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər. Naxçıvan Muxtar Respublikasının stendinin maraqdoğuran xüsusi cəhəti bundan ibarət olub ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyinin başlıca şərtlərindən biri olduğunu nəzərə alan Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Naxçıvandan olan ailə təsərrüfatçıları və sahibkarlar üç gün davam edəcək sərgidə Naxçıvanın yerli istehsalı olan məhsullarla yanaşı, təbii dərman bitkiləri, meyvə quruları, yurdumuzun səfalı torpağından toplanan mövsümi bitkilər, müxtəlif turşular sərgiləyir. Naxçıvan göyçəsi, pendiri, lavaşı, dastanası, qovurması sərgiyə gələnlərin və burada iştirak edən başqa rayon sakinlərinin diqqətini çəkir. Sərgidə iştirak edən bir neçə sahibkar və ailə təsərrüfatçısı ilə telefon əlaqəsi yaradıb, təəssüratlarını öyrəndik.

***“Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin ixracat üzrə mütəxəssisi Cahangir Həsənov*** qeyd etdi ki, şirkət bir neçə dəfə bu kimi sərgilərdə öz məhsullarını nümayiş etdirib. Əsas etibarilə “Sirab” mineral suları, Ləzzət Biskvit və şokolad Fabriki, “Ləzzət Qida Sənaye”, “Ləzzət Broyler” məhsullarının istehsalı və satışı ilə məşğuldur:

– Bu sərgidə şirkətimiz 30 məhsul adı altında 300-dən çox çeşidi təqdim edir. Bu ildən etibarən “Zərif” salfetlərinin də istehsalına başlamışıq və onların da bu sərgidə təqdimatını edirik. Müəssisə həm yerli bazar, həm də xarici bazarda 10-dan çox ölkəyə məhsul ixrac edir. “Badamlı” mineral suları və müəssisəsi də bu ildən “Ləzzət Qida Sənaye”nin tərkibinə qoşuldu. Bu sərgidən ümidlərimiz böyükdür, yeni-yeni əməkdaşlıqlar, iş birlikləri formalaşdırmağa çalışırıq. Bu cür sərgilərin təşkili, Naxçıvan məhsullarının da burada sərgilənməsi məhsullarımızın tanıdılmasında və təbliğində böyük rol oynayır. Təşkilatçılara təşəkkür edirik.



Müsahibim söylədi ki, sərginin ilk günündə Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin qonağı oldular.





Ölkə başçısı Naxçıvan məhsulları olan guşəni də ziyarət edərkən “Badamlı” sularını göstərdi və məmnunluqla bildirdi ki, “Badamlı” suları daim masasının üzərində olur.

***Şərur rayonu Danyeri kənd sakini ailə təsərrüfatçısı Nazim Novruzov*** uzun illərdir, maldarlıq və əkinçiliklə məşğuldur. Onunla telefon əlaqəsi saxladıqda bildirdi ki, sərgiyə maraq çoxdur. Burada dünya standartlarında uyğun müasir texnikalar da nümayiş olunur. Başqa regionlardan olan təsərrüfatçılarla da fikir mübadiləsi aparmaq maraqlı oldu.

***Ordubad rayonu Baş Dizə kəndinin sakini, ailə təsərrüfatçısı Bağır İsgəndərov*** dedi ki, bu kimi beynəlxalq sərgilərdə iştirak edib qabaqcıl texnologiyaları və müasir əkinçilik qaydalarını öyrənmək gələcək təsərrüfat işlərinə, becərilmə qaydalarını öyrənməyə böyük dəstək olacaq. Muxtar respublikaya ayrılan stenddəki Ordubad sucuğuna, alanasına, əriyinə, cəvizinə, növrəstə gilasa, xüsusilə də limon ağacına marağın çox olduğunu vurğulayan müsahibim qeyd etdi ki, buraya gələnlər bu məhsullardan satın almaqla yanaşı, yetişdirilmə qaydasını da öyrəndilər. Ölkə başçısının sərgi ilə tanışlığı zamanı Ordubaddan buraya gətirdiyimiz üstü barlı limon ağacına da baxması onlar üçün xoş təəssürat oldu. Zəhmət adamı qeyd etdi ki, bu cür sərgilərin təşkili diqqətəlayiqdir.

***Sədərək rayonunun Sədərək kənd sakini, ailə təsərrüfatçısı Nazilə Əliyeva*** muxtar respublikada keçirilən festivalların və satış yarmarkalarının fəal iştirakçısıdır. O bildirdi ki, muxtar respublikanın sərhəd yaşayış rayonu olan Sədərəkdən bu sərgiyə rayona məxsus bir çox dərman bitkilərinin qurularını, müxtəlif meyvələr, qovurma, turşular, əriştə, mürəbbə, Sədərək dastanası gətiriblər. Sərgiyə marağın böyük olduğunu deyən müsahibimiz onu da qeyd etdi ki, onlar Naxçıvanı burada layiqincə təmsil etməyə çalışırlar.

Sərgidə iştirak edən, əslən Şərur rayonundan olan, 60 ildən çoxdur ki, ***Bakı şəhərində yaşayan 75 yaşlı Elman Məmmədov*** da telefon əlaqəsi zamanı fikirlərini bölüşdü:

– Uzun illərdir, Bakı şəhərində yaşayıram. İşimlə əlaqədar illərlə doğma kəndimə gedə bilmirəm. Azərbaycanın müxtəlif rayonlarından Bakı şəhərinə müxtəlif məhsullar gətirilməsi daha asandır. Naxçıvandan məhsul gətirilməsi bir az vaxt və əlavə xərc tələb edir. Dövlətimizin qayğısı ilə təşkil olunan bu cür sərgilərdə məhsullar daha ucuz qiymətə təklif edildiyi üçün satın almaq daha da sərfəlidir. Göyçə də satın aldım, çaşır turşusu da, qovurma ilə, dastana, qutab da. Sərginin Naxçıvana aid stendində sanki yurdumun havası əsir. Bütün məhsullarda elimin xanımlarının əllərinin dadı, analarımızın duası var.

*Bu gün sona çatacaq sərgidən xoş təəssüratlarla ayrılan həmyerlilərimiz orada qazandıqları təcrübəni öz əkin və bağlarında da həyata keçirməyə səylə çalışacaqlar. İnanırıq ki, orqanik məhsulları ilə ad qazanan qədim yurdumuz bundan sonra daha da böyük tədbirlərdə layiqincə təmsil olunacaq.*

✍ **Ramiyyə ƏKBƏROVA**

*18 may – Beynəlxalq Muzeylər Günü münasibətilə Naxçıvan şəhərindəki Açıq Səma Altında Muzeydə tədbir keçirilib.*

# Naxçıvanda Beynəlxalq Muzeylər Günü qeyd olunub



Naxçıvan Muxtar Respublikasının mədəniyyət nazirinin müavini, mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Həsən Kərimov çıxışında ölkəmizdə muzey işinin özünəməxsus inkişaf yolu keçdiyini bildirib. Vurğulayıb ki, ölkəmizdə bu sahənin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır, Ulu Öndər ölkəmizdə muzeylər şəbəkəsinin genişləndirilməsinə, onun maddi-texniki bazasının gücləndirilməsinə böyük əhəmiyyət verib.

Qeyd olunub ki, Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənib, bu sahənin hüquqi bazası formalaşıb, bir sıra muzeylərimiz UNESCO-nun Dünya irsi siyahısına daxil edilib.

Müstəqillik illərində ölkəmizin hər bir bölgəsində olduğu kimi, muxtar diyarda da yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülməsindən danışan Həsən Kərimov qeyd edib ki, hazırda muxtar respublikada 1 rəsm qalereyası və 29 müxtəlif profilli muzey fəaliyyət göstərir, muzey fondlarının mütəmadi zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, 30 illik işğala son qoyub əzəli və əbədi torpaqlarımızı azad etməklə Tarixi Qələbəyə imza atan Azərbaycan illər boyu mənimsənilib talan edilən mədəni və tarixi irsimizi də işğaldan xilas etdi. Ölkə başçısı cənab İlham Əliyev və Mehriban xanım Əliyevanın qayğısı sayəsində Qarabağda muzeylər, tarixi abidələr intibah dövrü yaşamağa başlayıb, mədəni irsimizin bərpası və mühafizəsi əsas prioritetlərdən biri olub.

Həsən Kərimov öz tarixi dəyərlərinə bağlı, milli-mənəvi dəyərlərini sevən gəncliyin yetişdirilməsində muzeylərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb, bu sahədə çalışan insanları təbrik edib, işlərində uğurlar arzulayıb.

Heydər Əliyev Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev “Heydər Əliyev və muzeylərimiz” mövzusunda çıxışında bildirib ki, Ulu Öndərin qayğısı sahəsində yüzdən çox tarix-diyarşünaslıq muzeyi, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev-muzeyləri, xatirə muzeyləri təşkil edilib. Ölkəmizdə Ümummilli Liderin sağlığında Onun adına ilk muzey də məhz Naxçıvanda yaradılıb.

Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məmməd Əliyev muxtar respublikada Muzeyşünaslıq ixtisası üzrə kadr siyasətinin uğurla aparılmasından danışıb.

Tədbirin sonunda muzeyin ekspozisiyasına baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Rabitə xətt təsərrüfatında yenilənmə işləri davam etdirilir



Muxtar respublikanın digər rayonları kimi, Şahbuzda da hər bir sahədə inkişaf tempi artır. Aparılan abadlıq və quruculuq işləri çərçivəsində əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlər davam etdirilir. Rayonun Kolani kəndində rabitə xətlərinin yenilənməsi istiqamətində həyata keçirilən tədbirlər bu sahənin inkişafına göstərilən dövlət qayğısını özündə əks etdirir. Kənddə aparılan quruculuq işləri çərçivəsində rabitə xətt təsərrüfatında təmir işləri görülüb. Bu məqsədlə 22 ədəd dəmir dirəyi basdırılıb, 800 metr fiber-optik xətt və 2700 metrdən artıq müxtəliftutumlu kabellər çəkilib, o cümlədən 1 ədəd paylayıcı şkaf və 30 ədəd yeni abonent qutusu quraşdırılıb.

Qeyd edək ki, Keçili kəndində də aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri çərçivəsində rabitə xətlərinin texniki normalara uyğunlaşdırılması məqsədilə 4 ədəd dəmir dirək basdırılıb, 150 metrə yaxın fiber-optik kabellər çəkilib, 120 metr müxtəliftutumlu kabellərdən istifadə edilib.

Şahbuz rayonunun yaşayış məntəqələrində rabitə infrastrukturunun müasirləşdirilməsi istiqamətində reallaşdırılan tədbirlər rabitə və internet xidmətlərinin tam kəsintisiz həyata keçirilməsinə şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Dövlət Universitetinin tələbəsi Rumıniyada keçirilən beynəlxalq festivalda I yerin sahibi olub




Rumıniyanın İaşi şəhərində keçirilən dünya universitetlər arası “International Events” (Beynəlxalq Tədbirlər) festivalında 23 ölkə arasından Naxçıvan Dövlət Universitetini təmsil edən, tədrisi ingilis dilində aparılan İqtisadiyyat ixtisası üzrə III kurs tələbəsi Məmmədəli İsmayıllı I yerin sahibi olub. Festivalda iştirakçıların dil biliyi, eyni zamanda mənimsədiyi dillərin mədəniyyəti haqqında məlumatlılığı yoxlanılıb. Azərbaycan, türk, Koreya və özbək dillərini mükəmməl şəkildə bilən Məmmədəli İsmayıllı Azərbaycan və Naxçıvan Dövlət Universiteti haqqında təqdimat edərək dinləyiciləri heyrətləndirməyi bacarıb və I yerə layiq görülüb.

Məlumat üçün onu da bildirək ki, 2-3 may 2023-cü il tarixdə Rumıniyanın “Sefan cel Mare” Universitetinin İqtisadiyyat, idarəetmə və biznes Fakültəsi həm Avropa İttifaqı (Aİ), həm də beynəlxalq tərəfdaşları Rumıniyanın Suçava şəhərinə dəvət edərək “Beynəlxalq Tədbirlər” festivalının ilk buraxılışını təşkil edib. Tədbirin məqsədi ümumi iş məkanının yaradılması, tərəfdaşlar arasında əlaqələrin gücləndirilməsi, tədris və elmi tədqiqatlar sahəsində yeni əməkdaşlıqların əsasının qoyulması olub. Tədbir tələbələrin təhsili və təlimi ilə bağlı ümumi prinsip və məqsədləri olan üç qitənin professor-müəllim heyəti arasında kollegiallıq və əməkdaşlıq əlaməti altında keçib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# *“Axtarışlar”* jurnalının yeni nömrəsi işıq üzü görüb



*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarışlar” jurnalının 2023-cü il üzrə ilk sayı çapdan çıxıb.*

Yeni nömrədə 50-dən artıq tədqiqatçının ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq sahələri üzrə müxtəlif mövzulu məqalələri verilib. Burada “Qazax türklərinin milli oyanış və özünüdərk prosesində Miryaqub Dulatovun rolu”, “Azərbaycan romantiklərinin ədəbi-nəzəri irsində türk ədəbiyyatı problemləri”, “Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasında Şirin obrazının türk epos ənənələri çərçivəsində təhlili”, “Britaniyada məskunlaşan xalqlar və onların ölkənin toponimik adlar sisteminə təsiri”, “Dillərin tədqiqinə kontrastiv yanaşma”, “Mədəniyyətlərarası kommunikasiyanın metod və üsulları”, “Himnin və marşın öyrənilməsi milli-mənəvi dəyərimiz kimi”, “Naxçıvanın qobelen rəssamları”, “Müasir dövrün musiqi formaları”, “Türk dilləri probleminin öyrənilməsində yeni səhifə” və başqa mühüm aktuallıq kəsb edən məqalələr yer alıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

### *İtmişdir*

Sədərək rayonunun Dəmirçi kəndində yaşamış Quliyev Əhməd Rəhim oğluna məxsus JN-585A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əhmədov Ramiz Məhərrəm oğlunun adına olan JN-1A, 1B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 340